AZƏRBAYCAN RESPUBLİKASI
**TƏHSİL NAZİRLİYİ**

№ 46-03-1718/17

« 26 » 04 2006 il

**Ali təhsil müəssisələrinin rəhbərlərinə**

Mütəxəssis hazırlığı işinin çevikliyini və ayrı-ayrı şəxslərin əlavə ixtisas təhsilini almaq arzusunu təmin etmək məqsədi ilə Azərbaycan Respublikası «Təhsil Qanunu»na uyğun olaraq Azərbaycan ali və orta ixtisas təhsili müəssisələrində əlavə ixtisas təhsili forması fəaliyyət göstərir.

Mövcud qanunvericiliyə əsasən əlavə ixtisas təhsili almaq üçün əvvəlki ali təhsili və ya hazırda (bir ildən az olmayaraq) işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər qəbul oluna bilərlər. Bu təhsil forması müvafiq ixtisas üzrə bakalavr pilləsi üçün mövcud olan baza təhsil proqramlarındakı ümumi, eləcə də ixtisas fənləri bölümlərini əhatə etməklə dinləyicinin əvvəlcə aldığı ixtisasın baza təhsil proqramı ilə onun təhsil almaq istədiyi yeni ixtisasın baza təhsil proqramı arasındakı fərqi nəzərə almaqla hazırlanmış qısaldılmış təhsil proqramları əsasında aparılır. Həmin proqram və tədris planı əsasında ali təhsili müvəffəqiyyətlə başa vuranlara bakalavr dərəcəsi və ali təhsil haqqında diplom verilir.

Buna görə də ali məktəblərdə əlavə ixtisas təhsili alan şəxslərə ali məktəbi bitirdikdə «bakalavr» dərəcəsi verilməlidir.

Lakin, ötən illərdə ali məktəb rəhbərlərinin xahişlərini nəzərə alıb müstəsna olaraq bir neçə ali məktəbdə əlavə ixtisas təhsili alan şəxslərə ali məktəbi bitirdikdə mütəxəssis dərəcəsi verilirdi.

Bildiyiniz kimi 2005-ci ilin may ayında Azərbaycan Respublikası rəsmi olaraq Boloniya prosesinə qoşulmuşdur. Boloniya deklarasiyasının əsas şərtlərindən biri iki pilləli (bakalavriat və magistratura) ali təhsil sisteminin mövcudluğudur. Qeyd olunanları və gələcəkdə müxtəlif ixtisaslar üzrə əlavə ixtisas təhsili almış şəxslər arasında çaşqınlığın yaranmaması məqsədi ilə cari ildən başlayaraq ali məktəblərdə əlavə ixtisas təhsili alan şəxslərə ali məktəbi bitirdikdə «bakalavr» dərəcəsi verilməlidir.

Bununla yanaşı bir daha bildiririk ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2003-cü il tarixli 64 №-li qərarı ilə «Xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının nostrifikasiyası Qaydaları» təsdiq edilmişdir. Həmin

Qaydalara uyğun olaraq xaricdə təhsil almış şəxslər Azərbaycanda peşə fəaliyyətinə başlamaq və ya təhsilini növbəti pillədə davam etdirmək üçün Azərbaycan Respublikası Təhsil Nazirliyində müvafiq proseduru keçməklə Şəhadətnamə almalıdırlar. 2003-cü ildən sonra yalnız müvafiq proseduru keçdikdən sonra xüsusi sertifikat verilən şəxslərin diplomları respublika ərazisində tanınır və bu diplomların sahibləri Azərbaycanda növbəti pillədə təhsil almaq və ya peşə fəaliyyəti göstərmək hüququna malikdirlər. Bu barədə Təhsil Nazirliyinin 07.06.2004-cü il tarixli 46-18-2662/16 №-li, 07.07.2004-cü il tarixli 46-21-3269/17 №-li və 05.12.2005-ci il tarixli 46-03-6115/17 №-li məktubları ilə yerli təhsili idarəetmə orqanları və ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinə məlumat verilmişdir.

Buna görə də bir daha bildiririk ki, 1992-ci ildən sonra xarici ölkə təhsil müəssisəsini bitirən, diplomları mövcud qaydada tanınmayan və hal-hazırda rəhbərlik etdiyiniz ali məktəbdə əlavə ixtisas təhsili alan xarici ölkə ali məktəblərinin məzunları qısa müddətdə diplomlarının tanınması ilə bağlı məktuba əlavə olunmuş siyahı üzrə sənədlərini toplayıb fərdi olaraq Təhsil Nazirliyinə təqdim etməlidirlər. Diplomları mövcud qaydada tanınmayan şəxslər imtahan-məğbul sessiyasına və ya dövlət attestasiyasına buraxmamalıdırlar. Qeyd olunan təlimatlara riayət edilmədikdə bu şəxslərə dövlət nümunəli diplomlar verilməyəcəkdir.

Qeyd olunan təlimatlara riayət etmək bir daha Sizə tapşırılır.

**Hörmətlə,** **Misir Mərdanov**